# MÜASİR AZƏRBAYCANIN QURUCUSU HEYDƏR ƏLIYEV

*Quluzadə Elburus Mənsur oğlu*
*Elmi rəhbər: Süleymanova Təranə Əhməd qızı*
*Mingəçevir Dövlət Universiteti (Azərbaycan)*

Müasir Azərbaycanın keşməkeşli və şərəfli yolu ulu öndərin hakimiyyətə 1969-cu il iyul ayının 14-dən rəhbərliyi dövründən başlayır. Məhz elə o dövrdən Heydər Əliyevin Azərbaycana rəhbərliyin ilk dövrlərində respublikanın üzləşdiyi problemləri ilk gündən düzgün müəyyən etməklə, həlli üçün lazımi iradə, güc-qüvvət, qətiyyət nümayiş etdirdi. Ümummilli lider Heydər Əliyev müxtəlif tədbirlərdə öz doğma dilində azərbaycanca çıxış etməklə cəmiyyətə doğma dilə, dinə, dəyərlərə bağlı olmağı, tarixi irsi yaşatmağı böyük müdrikliklə təlqin edirdi. Hələ 1977-ci ildə Heydər Əliyevin təşəbbüsü və səyi ilə respublikanın Konstitusiyasında Azərbaycan dili dövlət dili kimi təsbit edilmiş və tətbiq olunmağa başlanmışdır.

İdarəçilikdə mütərəqqi yenilikləri tətbiq etməklə, bacarıqlı kadrlara dəstək göstərməklə, cəmiyyətin normal inkişaf ahəngini təmin etdi.

SSRİ-nin nüfuzlu ali məktəblərində on beş mindən yuxarı azərbaycanlı gənc təhsil almağa göndərildi. Bu, ölkənin milli kadrlarının yetişdirilməsində irəliyə doğru atılmış ən mühüm addımlardan biri idi.

1980-ci ildə sənaye məhsulu istehsalının həcmi 1970-ci ilə nisbətən 2,9 dəfəyə qədər artdı. Maşınqayırma sənayesində istehsalın həcmi 5,3 dəfə, kimya və neft-kimya sənayesində 3 dəfədən çox, yeyinti sənayesində isə 4 dəfədən çox artmışdı. Sənayenin struktur quruluşunda maşınqayırma kompleksinin xüsusi çəkisi 1960-cı ildə 5,1 faizdən 1982-ci ildə 16,4 faizə, kimya və neft-kimya, meşə sənayesi kompleksi müvafiq olaraq 4,1 faizdən 8,7 faizə, tikinti materialları sənaye kompleksi 2,7 faizdən 3,2 faizə, yeyinti sənayesi kompleksi 2 dəfədən çox artdı.

Azərbaycanda müasir texnologiyaya əsaslanan neft sənayesi və neft emalı üzrə yeni-yeni müəssisə və zavodların yaradılması ölkəmizdə bu strateji məhsulun istehsalını və emalını nəzərəçarpacaq dərəcədə artırdı. O dövrdə Xəzər dənizinin hesabına Azərbaycanda neft sənayesinin gələcək inkişafını nəzərə alaraq Bakıda unikal bir zavod - dərin dəniz özülləri zavodu tikildi. O cümlədən, ölkəmizdə 1969-1982-ci illər ərzində respublikada müxtəlif təyinatlı 320-yə yaxın sənaye müəssisəsi tikilib istifadəyə verildi.

XX əsrin 90-cı illərində dünya miqyasında mürəkkəb və ziddiyyətli geosiyasi proseslərin getdiyi bir şəraitdə Azərbaycanı müstəqil dövlət kimi qurmaq son dərəcə müdrik, yaradıcı və çevik yanaşma tələb edirdi. Heydər Əliyev bu vəzifəni 1993-cü ildən etibarən uğurla yerinə yetirməyə başladı. Həmin ilin may-iyununda dövlət böhranının, hakimiyyətsizliyin, xaosun, yarandığı ölkəmizdə vətəndaş müharibəsi təhlükəsi üzləşdiyi xalq təkidlə Heydər Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağı qalxdı, bu, ümummilli hərəkata çevrildi. 15 iyun 1993-cü il tarixə Milli Qurtuluş Günü kimi daxil oldu. Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrində əsaslı dönüş yarandı. Elmi əsaslarla beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Müdrik siyasətçi üzləşdiyi

çətinliklərə, maneələrə, dövlət çevrilişi cəhdlərinin cəsarətlə qarşısını alaraq mübarizlik, əyilməz iradə, özünəinam və siyasi uzaqgörənlik kimi Heydər Əliyev xalqımızı vətəndaş müharibəsindən, müstəqilliyimizi itirmək təhlükəsindən qurtardı, müasir tariximizə dövlətçiliyimizin xilaskarı, qurucusu kimi daxil oldu! Milli Ordu formalaşdı, torpaqlarımızın müdafiə olunması ilə bağlı mühüm addımlar atıldı. Məhz Heydər Əliyevin yeritdiyi uzaqgörən xarici siyasət, diplomatik səylər nəticəsində dünya birliyi Dağlıq Qarabağ ətrafındakı hadisələrlə bağlı kimin haqlı, kimin haqsız olduğunu dərk etdi, Azərbaycanın yalnız öz ərazisinin bütövlüyünə, sərhədlərinin toxunulmazlığına yönəlmiş haqq işini müdafiə etməyə başladı. Atəşkəsə nail olmaq üçün bütün siyasi və diplomatik vasitələr işə salındı və bunun nəticəsində 1994-cü ilin mayında atəşkəsə nail olundu.

Ümummilli liderin yenidən respublika rəhbərliyinə qayıdışı Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiyasına imkan verdi. Ulu öndər bütün daxili və xarici təzyiqlərə baxmayaraq, 1994-cü il sentyabrın 20-də ölkəmizin təbii sərvətlərinin, ilk növbədə Xəzərin Azərbaycan sektorundakı neft və qaz yataqlarının birgə istismarı sahəsində dünyanın aparıcı şirkətləri ilə əməkdaşlıq əlaqələri yaratmağa müvəffəq oldu.

Heydər Əliyevin uzaqgörən siyasəti və gərgin fəaliyyəti nəticəsində ölkəmizin sosial-iqtisadi inkişafı və dünya təsərrüfat sisteminə inteqrasiyası sahəsində çox böyük nailiyyətlər əldə olundu. Ən böyük nailiyyət isə ondan ibarətdir ki, bu dövrdə ölkəmizdə aparılan müstəqil dövlət quruculuğu prosesində iqtisadi islahatların və inkişafın mahiyyət etibarilə yeni bir modeli - Azərbaycan modeli yarandı. Azərbaycan neftinin dünya bazarlarına çıxarılması üçün 1996-cı ildə Bakı-Novorossiysk, 1999-cu ildə isə Bakı-Supsa ixrac neft kəmərlərinin istismara verilməsinə və Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin inşası ilə bağlı sazişin imzalanmasına, beləliklə də ixrac marşrutlarının diversifikasiyasına nail olundu. Sahibkarlığı inkişaf etdirmək, əlverişli biznes və investisiya mühiti yaratmaqla ölkəyə xarici investisiyaları cəlb etməklə, qeyri-neft sektorunun inkişafına nail olmaq bu mərhələdə həyata keçirilən iqtisadi siyasətin səciyyəvi xüsusiyyətlərindən biri olmuşdur. Həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində Azərbaycanda sahibkarlar təbəqəsi formalaşmış, özəl sektorun ölkənin sosial-iqtisadi inkişafında rolu daha da artmışdır.

Müasir Azərbaycan dövlətinin yaradıcısı və qurucusu, xalqımızın böyük oğlu, ümummilli lider Heydər Əliyevin layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi altında bütün respublikamız sabaha doğru inamla irəliləyir. Məhz onun rəhbərliyi ilə doğma Azərbaycan özünün inkişaf dövrünü yaşayır, həyatımızın bütün sahələrində böyük nailiyyətlər qazanılır. Əhalinin yaşayış şəraiti, maddi rifah halı günbəgün yaxşılaşır. Heç şübhəsiz, bütün bunların əsasında ümummilli lider Heydər Əliyevin yaxın və uzaq gələcək üçün hazırladığı və bizə miras qoyduğu milli inkişaf strategiyası durur.